## ADU-75: “Bu günün gərçək universiteti, bir kitabxanadır”

09 iyun, 2023



Azərbaycan Dillər Universiteti tədris, elm, humanitar və beynəlxalq sahələrdə qazandığı böyük nailiyyətləri ilə respublikanın təhsil sistemində və respublikanın ali məktəbləri arasında özünəməxsus aparıcı təhsil ocaqlarından birinə çevrilmişdir. Əsası 75 il bundan əvvəl qoyulmuş universitetin keçdiyi inkişaf yolu kollektivin hər bir üzvü üçün əsl qürur mənbəyidir.

Keçən əsrin otuzuncu illərinə qədər bir nəfər də azərbaycanlı xarici dil mütəxəssisi olmayan respublikada hazırda məhz bu universitetin yetişdirməsi olan minlərlə ali təhsilli müəllim, diplomat, tərcüməçi fəaliyyət göstərir. ADU-n məzunları müstəqil Azərbaycanın daha da inkişaf etməsi, dünya ölkələri arasında nüfuzunun artması, dövlətçiliyimizin möhkəmləndirilməsi naminə müxtəlif elm ocaqlarında uğurla çalışırlar.

Universitet yarandığı gündən onun strukturunda önəmli yeri olan kitabxana da təşkil olunmuşdur. Ümummilli lider Heydər Əliyevin 13 iyun 2000-ci ildə “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” imzaladığı fərman respublikada ali təhsil müəssisələrinin işinin yenidən qurulması sahəsində mühüm rol oynadı.

Həmin fərmanla Azərbaycan Dillər Universiteti yaradıldı və Xarici Dillər İnstitutunun bazasında universitet yaradılması əslində bu ali məktəbin həyatında yeni mərhələnin, dünya təhsil məkanına inteqrasiyanın başlanğıcı idi.

Universitet yarandığı vaxtdan bu günə qədər burada yüzlərlə professor, müəllim, elmi işçi fəaliyyət göstərmiş və onların Azərbaycan və dünya dilçilik elminin inkişafında mühüm rol oynamış minlərlə əsəri nəşr olunaraq elmi ictimaiyyətin istifadəsinə verilmişdir. Bu əsərləri bir yerə toplayaraq biblioqrafiyasını hazırlamaq nə qədər ağır və çətin olsa da bir o qədər də şərəfli və əhəmiyyətli işdir. Kitabxanamızın əməkdaşları elmi hissə ilə birlikdə bu məsuliyyətli işin öhdəsindən ləyaqətlə gələrək fundamental biblioqrafik göstərici hazırlaya bilmişlər. Böyük zəhmət tələb edən göstəricinin tərtibi respublikanın ali məktəbləri arasında ilk təşəbbüs olduğundan qiymətini zaman verəcəkdir. “Azərbaycan Dillər Universitetinin professor-müəllim heyətinin 1948-2010-cu illərdə nəşr olunmuş əsərlərinin

biblioqrafiyası”nın tərtib olunması təşəbbüsü və bütün bu illər ərzində materialların toplanmasına, sistemləşdirilməsinə, hər bir müəllif, yaxud əsər haqqında məlumatların dəfələrlə yoxlanılaraq dəqiqləşdirilməsinə rəhbərlik və göstəricinin elmi-biblioqrafik redaktorluğu kitabxananın direktoru Ələddin Əliyevə məxsusdur.

Göstərici elmi işçilərə, tədqiqatçılara, universitetin tarixi, elmi nailiyyətləri ilə maraqlanan oxuculara kömək məqsədilə tərtib edildiyindən, elmi-köməkçi xarakter daşıyır və toplanmış materiallar xronoloji qaydada verilmişdir.Əsərlərin əksəriyyəti Azərbaycan və rus dillərində çap olunduğu üçün göstərici də hər dildə bir cild olmaqla iki cilddə hazırlanmışdır.

Universitetdə elmin inkişafına, yüksək səviyyəli elmi-pedaqoji kadrların hazırlanmasına həmişə böyük qayğı ilə yanaşılmışdır, lakin bu istiqamətdə əsas dönüş və inkişaf 2017-ci ildən yaranmışdır.

Yüksək səviyyəli elmi-pedaqoji kadrların ilbəil artması universitetin elmi həyatında böyük canlanma əmələ gəlməsinə səbəb oldu. Universitetimiz tədrisin dünya təhsil məkanına inteqrasiyası istiqamətində daim axtarışlar aparır, cəsarətli eksperimentlər qoyur, aparılan islahatların səmərəliliyini artırmaq məqsədilə qəti addımlar atır. Xüsusən, Amerika, Avropa, Rusiya, Çin və Türkiyənin universitetləri ilə sıx əlaqələr yaradılması sahəsində görülmüş işlər Azərbaycan təhsilində analoqu olmayan təşəbbüsdür.

Tələbə və müəllim heyyətinin mədəni və mənəvi yeri olan Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi həm respublika həm də dünyanın aparıcı universitet kitabxanaları ilə sıx əlaqə yaratmış və hazırda qarşılıqlı əməkdaşlıq yolu ilə həmin təhsil ocaqlarının qabaqcıl iş təcrübəsi elmi xidmət prosesində uğurla tətbiq olunur.

Universitetin profilinə uyğun bütün elmi istiqamətlər üzrə çox dəyərli elmi-tədqiqat əsərləri nəşr edilmiş və indi də bu iş müvəffəqiyyətlə davam etdirilir. Alimlərin öz əsərlərini operativ dərc etdirə bilməsi üçün “Elmi xəbərlər”və “Dil və ədəbiyyat” kimi elmi jurnallar nəşr olunur. Hər iki jurnalın tədqiqatçılar üçün əlyetərli olması üçün e-variantda ADU Dspace rəqəmsal kitabxanada yerləşdirilmişdir. Dspace rəqəmsal kitabxana məlumat bazası məkan və vaxt məhdudiyyəti olmadan açıq istifadədədir

ADU-nun professor-müəllim heyətinin elmi-tədqiqat işlərinin, eləcə də dərslik və dərs materiallarının universitetimizə məxsus ünvanlı DSpace e- kitabxanada yerləşdirilməsi və sərbəst girişlə istifadəçilərin ixtiyarına verilməsi reallaşdırılıb. Müəlliflərin istinad mənbəsi, tədqiqat resurslarına səmərəli girişin təmin edilməsi, tədqiqatçıların öz sahələrindəki tərəqqi barəsində cari məlumatlılığının saxlanılmasına kömək edilməsi və fakültə ilə işləməklə tələbə, müəllim və aspirantların tədqiqat metodologiyası, informasiya-axtarış bacarıqlarında səriştəli olmalarına zəmanət yaratmaqla, akademik tədqiqatı dəstəkləyir.

Dspace rəqəmsal kitabxananın interfeysi ilk dəfə azərbaycan dilinə (öz təşəbbüsümüzlə) biz çevirmişik. Hazırda istifadəçilərin tələb və istəklərini nəzərə almaqla məlumat kolleksiyamız daha da zənginləşdirilir.

Universitetimizin rektoru, akademik Kamal Abdullanın diqqət və qayğısı sayəsində EKİXM-nin maddi-texniki bazası daha da gücləndirilmişdir.

Universitetdə hər bir ali məktəbin arzu edə biləcəyi geniş kitabxana şəbəkəsi yaradılıb. EKİXM-də il ərzində 30697 oxucuya xidmət göstərilmişdir. Kitab resursu 500 000 (beş yüz minə) yaxındır.

Qeyd edək ki, 2017-ci ildən Azərbaycan Dillər Universitetinin rektoru, AMEA-nın həqiqi üzvü, akademik Kamal Abdullanın verdiyi tapşırığa əsasən universitetin hər tədris korpusunda və qızlar yataqxanasında kitabxana bölmələri yaradılıb və oxucu istifadəsinə verilib..

ADU-nun rektoru akademik Kamal Abdulla  hələ Slavyan Universitetində rektor işlədiyi vaxt Ümummilli lider Heydər Əliyev rektorlarla görüşü zamanı rektorlara müraciətində demişdir: “tələbələr mənim sizə əmanətimdir” Hər il Kamal müəllim birinci kurs tələbələri ilə görüşündə bu hikmətli kəlamları tələbə kollektivi qarşısında deyir: “Siz mənə Ümumilli liderin əmanətisiniz”.

Görüşdə eyni zamanda birinci kurs tələbələrinə lazım olan bədii ədəbiyyatın alıb qayıməsini universitet mühasibatına verən tələbələrin kitabları universitet tərəfindən ödənilir. Rektorun bu müdrik təşəbbüsü gənc tələbənin evdə şəxsi kitabxanasının bünövrəsinin qurulması, mütaliə vərdişinin formalaşması məqsədini daşıyır.

Hörmətli rektorumuzun tövsiyəsi ilə Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzində ADU akademik kollektivi tərəfindən “Birinci kurslara kitab hədiyyəsi” guşəsi təşkil olunub. Hər iki təşəbbüs tələbə rektor, tələbə müəllim münasibətlərinin doğmalığından irəli gəlir.

İslahatların davamı olaraq  2018-ci ildən ADU Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi bir sıra dövrü nəşrlərə abunə yazılmaqla bərabər, dünyanın nüfuzlu məlumat bazalarından biri olan  EBSCOhost məlumat bazasına hər il abunə yazılır. EBSCOhost elmi verilənlər bazasında toplanan elektron tammətnlərinin təminatı istiqamətində dəstək proqramı həyata keçirir. Bu əməliyyatlar ənənəvi və onlayn formada, elektron kitabxana  informasiya xidməti prinsipləri əsasında reallaşır.

2021-ci ilin əvvəlindən struktur dəyişikliyi ilə əlaqədar olaraq Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin inkişafinda yeni mərhələnin başlanğıcı oldu .

Müasir yanaşma və  geniş informasiya axınının elmi inkişafa yönəldilməsi, oxucuların mümkün qədər geniş və mütərəqqi  informasiya resurslarına çıxış imkanının təmin edilməsi məqsədilə tərəfimizdən bir sıra yeniliklər həyata keçirilməkdədir.

Universitetlərimizdə mövcud olan siyasi və sosial təbiətin dəyişməsi ilə bağlı mövcud vəziyyət elmi kitabxananı öz məqsədlərini yenidən düşünməyə, fəaliyyətinin yeni məqsəd və vəzifələrini müəyyənləşdirməyi  yenidən nəzərdən keçirməyə məcburdur. Universitet kitabxanaları artıq təhsil və təhsil müəssisələrində fəaliyyət göstərən funksiyaları öz üzərinə götürən çoxfunksiyalı qurumlar kimi çıxış edir.

Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin yarandığı dövrdən müntəzəm olaraq ən müxtəlif mövzularda elmi-nəzəri, elmi-praktik seminarlar və keçirilən təlim materiallarını, tezislərini və video yazıları e-kitabxana bazasına yerləşdirilmişdir. Bu materialların bir çoxu müasir  dilçilik elminin inkişafında mühüm rol oynamaqla yanaşı bu günün tələblərinə cavab verən mütəxəssislər üçün məlumat bazasıdır.

Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzindəki yeniliklərin daha da geniş təbliğinin aktivləşdirilməsi, professor-müəllim  və tələbə heyyətinin müntəzəm olaraq məlumatlandırılması üçün sosial şəbəkələrdə işıqlandırılması və fakultələr üzrə təqdimatların keçirilməsi cari iş üsulumuzdur.

Keçmişdən bu günə qədər; texnoloji inkişafa uyğun olaraq dəyişən informasiya mühiti və mənbələr, akademik nəşr dünyasında, informasiya mühitinin və mənbələrin dəqiq və etibarlı məlumatlar əldə etməyi araşdırmaqdır.

Müasir təhsil sisteminin bütün pillələrinin əlaqəli inkşafı və inteqrasiyasını təmin etməklə elmi-metodiki və akademik xidmətləri göstərmək, magistr, doktorant və tədqiqatçı heyyətinə mötəbər akademik

platformalardan istifadə bacarıqlarının aşılanması Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin aktual iş prinsipidir.

ADU Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi, texnologiya sayəsində bilik yaratmağı formalaşdırır, tələbəláin (istifadəçilərin ) öyrənmə və araşdırma tərzini dəyişdirir, bütün tədqiqatçılara və elmi araşdırma aparan şəxslərə distant və ənənəvi informasiya xidmətləri təqdim edir.

Təhsil ocaqlarının ölkə daxilində, bir qrup ölkəni əhatə edən bölgələrdə və beynəlxalq aləmdə geniş əməkdaşlıq şəbəkələrinin qurulması qloballaşma dövründə güc qazanma cəhətdən zəruriyyətə çevrilmişdir.

Məlumdur ki, universitetlərin, kafedraların, elmi jurnalların və nəticə olaraq respublikanın elmi nüfuzu illik reytinqlərin elmi təhlilindən asılıdır. Müəyyən tədqiqat sənədin təsirini araşdırmaq üçün bibliometrik fəaliyyətimizi genişləndirmək və universitetimizin ümumi reytinqinin yüksəldilməsində aktiv iştirak etmək məqsədi ilə ADU-nun elmi göstəricilərini toplamaq, təhlil etmək və təbliq etmək istiqamətində bir sıra işlər görürük.

Bu sahələr; nəşr prosesləri, elmi tədqiqat, məlumat mübadiləsi, jurnallarda qəbul meyarları, məqalə dərc etmə prosesləri, şübhəli –Yırtıcı jurnallar, məlumat bazaları, kitabxanaçılar və provayderlər, akademik nəşriyyatçılar və alimlər arasında əlaqə, Akademik profillərin yaradılması, etibarlı açıq giriş mənbələri - və sairə kimi sahələri sadalamaq mümkündür.

Ali məktəblərin reytinqi keyfiyyətli təhsili ilə yanaşı kitabxanası və onun xidmət səviyyəsi ilə də ölçülür.

ADU Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi universiteti və bütövlükdə ictimaiyyəti dəstəkləyir və gələcək nəsilın qlobal liderləri kimi yetişməsinə kömək edir.

Dünyada universitetlərin reytinqinin müəyyənləşdirilməsi sahəsində tanınmış "QS" reytinq cədvəli universitetin dünyada nüfuzu, müəyyən meyarlara görə ölçülür.Mart ayında QS sahələr üzrə universitetlərin reytinqi (SUBJECT RANKİNGS 2023) açıqlanmışdır. Sözügedən reytinqdə 161 ölkədən 1594 ali təhsil müəssisəsi iştirak etmişdir. Azərbaycan Dillər Universiteti müasir dillər üzrə (301-340) dünyada ən yaxşı universitetlər qrupuna daxil olmuşdur.

Universitetimizin reytinq qazanması 75 illik yubiley ərəfəsinə ADU ailəsinə hədiyyə oldu.

***Cəmilə Əliyeva, Elmi kitabxana və İnformasiya Xidməti Mərkəzinin rəhbəri***